# Məcburi köçkünlər Böyük Qayıdışı intizarla gözləyirlər

***Məlum olduğu kimi, ötən əsrin doxsanıncı illərinin əvvəlində Ermənistan bəlli səbəblərdən Azərbaycan torpaqlarının 20 faizini işğal etdi. Otuz ilədək işğal altında saxladığı torpaqlarımızla qane olmayan ermənilər Azərbaycan ərazisinə soxulmaq, yeni ərazilər ələ keçirmək üçün dəfələrlə cəhdlər etdilər. Belə cəhdlərdən biri 2020-ci il sentyabrın 27-də oldu. Səhər saatlarında Ermənistan silahlı qüvvələri müxtəlif istiqamətlərdən, müxtəlif təyinatlı silahlardan, artilleriyadan istifadə etməklə bir neçə istiqamətdən yaşayış məntəqələrimizi, mövqelərimizi atəşə tutdu. Ordumuz bu hücumun qarşısını qətiyyətlə aldı. Ali Baş Komandanın əmri ilə əks-hücum əməliyyatı başladı. Bu, Vətən müharibəsi idi.***



Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev Vətən müharibəsinin mahiyyətini belə ifadə edirdi: "Bizim davamız ədalətli davadır və əminəm ki, bu müharibədə biz istədiyimizə nail olacağıq, haqq-ədalət öz yerini tapacaq və Azərbaycan öz ərazi bütövlüyünü bərpa edəcək".

Əminliklə deyilən bu fikirləri Azərbaycan Ordusu 44 gün müddətində ger-çəkləşdirdi. Bu tarixi Zəfərdən sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 10-da xalqa



müraciətində dedi: "Xoşbəxtəm ki, biz öz Vətənimizə, doğma Qarabağımıza qayıdırıq, Qarabağımızın tacı olan Şuşaya qayıdırıq və bu torpaqlarda əbədi yaşayacağıq! Bundan sonra heç kim bizi o torpaqlardan tərpədə bilməz!".

Vətən müharibəsi başlananda çağırışyaşlı, hərbi xidmətdən tərxis olunan minlərlə gənc Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rayon şöbələrinə müraciət edərək döyüşənlərin sırasında olmaq istəmişdi. Onların əksəriyyətinin xahişi yerinə yetirilməmişdi. Vətən müharibəsini qələbə ilə tamamlamağa ordumuzun qüdrəti çatdığı üçün Azərbaycan Respublikası Prezidentinin sərəncamı ilə qismən səfərbərlik elan edildi.

Vətən müharibəsi hamını əsgərləşdirmişdi. Ön cəbhədən uzaqda olanlar da özləri qəlbən döyüşənlərin sırasında idilər. Xalq döyüşən orduya həm mənəvi, həm də ehtiyac olmasa belə, maddi yardım göstərirdi. Çünki, Vətən müharibəsi xalqın müharibəsi idi. Qələbə də xalqın qələbəsi oldu. Azərbaycan Respublikasının Prezidenti noyabr ayının 8-ni Zəfər Günü elan etdi. Bu tarix Azərbaycan torpaqlarının işğaldan qurtuluş tarixi oldu. Xalq əmindir ki, bir də heç bir dövlət ərazi bütövlüyümüzə qəsd etməyə meyillənməyəcək.

Azərbaycan Ordusu düşmənin müqavimətini qırdı, müdafiə sədlərini darmadağın etdi. Ordumuzun gücü, qüdrəti döyüşlərin taleyini həll etdi. Suqovuşan, Cəbrayıl, Füzuli, Qubadlı, Zəngilan işğaldan azad edildi. Bu qələbələr xalqın Ali Baş Komandanın sərkərdəlik qüdrətinə inamını artırdı. Bu inam Şuşa işğaldan azad ediləndə daha böyük coşqu ilə yaşandı. Bu qələbəni Rusiya mediası obyektivliklə, səmimiyyətlə, dürüstlüklə belə ifadə etdi: "Belə döyüş, dövlət, Vətən sevgisi görən olubmu? – demək çətindir. Dağ yuxarı, şəhidi çiynində, döyüşə-döyüşə qan-tər içində qalxırdı Azərbaycan Ordusu. Nə yaralını, nə də şəhidini əldən buraxmırdı. Nəfəs almadan Şuşaya çıxdılar". Xalqımız xarici medianın Şuşanın işğaldan azad edilməsi əməliyyatına verdiyi dəyəri Azərbaycan Ordusunun qüdrətinə verilən dəyər bildi.

Füzulili ana doğma ocağına qayıdan günü evinin divarlarının uçulduğunu görəndə göz yaşları sellənsə də hıçqıraraq içində "Uçulan yenidən tikiləcək, sönən ocaqlar yenidən yandırılacaq. Torpağıma qayıtmışam. İndən belə ölsəm də dərdim yoxdu...", – deyib. Bütün məcburi köçkün anaların belə düşündüklərinə zərrəcə şübhəm yoxdu.

Vətən müharibəsindən əvvəl də, Zəfərdən sonra da yüzlərlə məcburi köçkün ana ilə söhbətləşmişəm. Döyüşlərdən əvvəl hər söhbətimizdə doğma yurda sədaqətdən danışmışdıq. Anaların ürəyini üzən sıxıntıları mən də onlarla qoşa yaşamışam. Zəfər sevincindən də onlarla nəfəs-nəfəsə fəxr etmişik. Ali Baş Komandana, Azərbaycan Ordusuna minnətdarlıqla qürurlanmışıq. "Nə qədər ki, nəfəsim var, Prezidentimə də minnətdar olacam, əsgərlərimizə də. Biz məcburi köçkünləri gor əzabından onlar qurtardılar...". Məcburi köçkünlər Böyük Qayıdışın yolçuları olacaqlar. Döyüşlərdən əvvəl "Təki torpağıma qayıdım, evimi daş-daş dikəldərik" – kəlmələrini əhd kimi, niyyət kimi, and kimi dinləmişəm. İndi hamısı "İcazə verilən kimi qayıdacağıq" – deyirlər. Onların dediklərini indi olduğu kimi xatırlayıram.

Bir məcburi köçkün ananın dediklərini isə heç vaxt unutmaram: "Evimin papağını başına qoyan kimi səni qonaq aparacam, ay qızım. Məcburi köçkünlükdən sonra ocağımın ilk qonağı sən olacaqsan...". Bu, mənim ömrümün ən gözəl anlarından olacaq...

Məcburi köçkünlər indi Böyük Qayıdışın intizarındadırlar.

***Səbinə XASAYEVA,***
***Milli Məclisin deputatı***

Xalq qəzeti 2021.- 14 mart.- S.4.